**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# TƏKRAR İSTEHSAL PROSESİNİN BAZAR MEXANİZMİ VƏ MİLLİ İQTİSADİ İNKİŞAFIN SÜRƏTLƏNDİRİLMƏSİ

İxtisas: 5307.01- İqtisadi nəzəriyyə

Elmi sahəsi: 53 - İqtisad Elmləri

İddiaçı: **Pərvin Süleyman qızı Verdiyeva**

Fəlsəfə doktoru elmi dərəcəsi

almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı - 2021**

Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyasının İqtisadiyyat İnstitutunun "İqtisadi siyasətin nəzəri əsasları və iqtisadi fikir tarixi" şöbəsində yerinə yetirilmişdir.

| | |
|---|---|
| Elmi rəhbər: | iqtisad üzrə elmlər doktoru, professor<br>**İrşad Abdul oğlu Kərimli** |
| Rəsmi opponentlər: | iqtisad üzrə elmlər doktoru, professor<br>**Ümüdvar Qənbər oğlu Əliyev** |
| | iqtisad üzrə elmlər doktoru, professor<br>**Veysəl Seyfəl oğlu Əyyubov** |
| | iqtisad üzrə fəlsəfə doktoru, dosent<br>**Elşən Əli oğlu İbrahimov** |

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Milli Elmlər Akademiyası, İqtisadiyyat İnstitutunun nəzdində fəaliyyət göstərən ED 1.10 Dissertasiya şurası

| | |
|---|---|
| Dissertasiya şurasının sədri: | iqtisad üzrə elmlər doktoru, professor<br>**Nazim Müzəffər oğlu İmanov** |
| Dissertasiya şurasının elmi katibi: | iqtisad üzrə fəlsəfə doktoru, dosent<br>**Sevda Məmməd qızı Seyidova** |
| Elmi seminarın sədri: | iqtisad üzrə elmlər doktoru,professor<br>**Fuad Əlinağı oğlu Qənbərov** |

## TƏDQİQATIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Bütünlükdə dünyanın hər bir regionunda olduğu kimi, həmin regionun hər bir ölkəsində də iqtisadi inkişaf, ümumi iqtisadi prinsiplərlə yanaşı, hər bir ölkənin konkret-tarixi şəraitinə uyğun spesifik prosesləri ilə də xarakterizə olunur. Bu hal ölkələrin təkrar istehsal prosesinə, onun inkişafının mövcud vəziyyətinə və perspektivlərinə də aid edilə bilər. Bu mənada Azərbaycan iqtisadiyyatına ümumi iqtisadi inkişaf prinsiplərindən istifadə etməklə yanaşı ölkənin spesifik inkişaf prosesləri çərçivəsində, daha konkret desək təkrar istehsala ümumi iqtisadi inkişaf mövqeyindən deyil, eyni zamanda konkret tarixi şəraitə uyğun real milli iqtisadi inkişaf prosesləri əhatəsində də baxılması lazım gəlir. Azərbaycanın milli iqtisadiyyatının formalaşması və inkişafının əsasında dayanan milli təkrar istehsal prosesi ölkə iqtisadiyyatını vahid bir sistem kimi işləməsinə imkan verir. Bu, bir daha onu göstərir ki, ölkənin ev təsərrüfatları, firmaları, şirkətləri və bütünlükdə iqtisadiyyatın real sektoruna daxil olan bütün sahə və yarımsahələr mexaniki birliyin məcmusu deyil, yalnız özünü təkrar istehsal edən iqtisadi mexanizmin tərkib elementlərinin qarşılıqlı təsirinin fasiləsiz davam etdirilməsi, bərpası və genişlənməsidir. Belə bir mexanizmə malik olan təkrar istehsal mərhələlərinin qarşılıqlı təsirinin və əlaqələnməsinin daha da möhkəmlənməsi, bununla da, ölkənin milli iqtisadi inkişafının daha da sürətlənməsinə nail olunması həyatı zərurətə çevrilir. Bu istiqamətdə ilk addım ölkədə milli iqtisadi artıma, ilk növbədə, iqtisadi mexanizmin və bununla da bazar mexanizminin təsiri amillərini dəqiqləşdirib məqsədəuyğun yönüm verməkdir. Bu mənada tədqiq olunan dissertasiya mövzusu çox aktualdır, xüsusi nəzəri və təcrübi əhəmiyyət kəsb edir.

Azərbaycan Respublikasının prezidenti İlham Əliyevin istər "Azərbaycan Respublikasının Milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi" və istərsə də "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli prioritetlər" ilə əlaqədar imzaladığı fərman Azərbaycanın milli iqtisadi və sosial inkişafının sürətləndirilməsi zəruriliyini daha da aktuallaşdırmış oldu. Belə ki, milli iqtisadiyyatın inkişaf səviyyəsi yüksəldikcə, milli iqtisadi inkişafın innovativ

amilləri fəallaşdıqca ölkədə davamlı iqtisadi inkişaf əsasında dayanan iqtisadi rəqabətqabiliyyətlilik, inkluzivlik və sosial rifah daha çox təmin edilə biləcəkdir.

Azərbaycanda milli iqtisadi inkişafın son illərdəki təcrübəsi iqtisadiyyatın qeyri-neft sektorunun milli sənayeləşmə istiqamətində prioritet sahələrinin formalaşması və inkişafı prosesi ilə xarakterizə olunur. Buna görə də Azərbaycan iqtisadiyyatında milli təkrar istehsal zəncirinin qarşılıqlı tamamlanmasında milli sənayeləşdirmənin obyektiv təsirlərindən real təcrübədə istifadə etmək imkanlarını hərtərəfli reallaşdırmaq zərurəti meydana çıxmışdır. Bu zərurət bir çox problemləri milli iqtisadiyyat qarşısına çıxarsa da, hər halda həmin problemlərin həllinin ilkin şərti milli istehsalla bazarın qarşılıqlı asılılığını və şərtlənməsini təmin etməklə bütünlükdə Azərbaycanda milli iqtisadi artıma nail olmaqdır. Milli istehsalla, onun son nəticələri ilə bazarın qarşılıqlı şərtlənməsini təmin etmək çətinlikləri Azərbaycan iqtisadiyyatındakı problemlərin başlıcalarından biri hesab edilə bilər. Çünki həmin proses milli təkrar istehsalın həlledici mərhələlərini əhatə etdiyindən bütünlükdə milli iqtisadiyyatın işləməsinin vacib şərti hesab edilməlidir. Son illərdən başlayaraq ölkədə həyata keçirilən iqtisadi islahatlar milli məhsulların, xüsusən milli brendlərin istehsalı ilə bazarın qarşılıqlı əlaqəsinin möhkəmləndirilməsi istiqamətində lazımı nəticəni versə də, hər halda həmin nəticə hələ ki, kifayətləndirici deyildir. Milli istehsal mallarının, göstərilən xidmətlərin həcmi və strukturu ilə bazarın həcm və strukturu arasında balanssızlıq, keyfiyyətli milli istehsal mallarının qıtlığı hökm sürür, mal çeşidlərində çevik yeniləşmə özünü göstərmir.

Müasir milli təkrar istehsal prosesi yeni məzmuna və mükəmməl formaya malik olan kifayət qədər mütərəqqi iqtisadi sistemə çevrilmişdir. Yəni dövlət tənzimlənməsi ilə bazarın öz-özünə tənzimlənməsinin birgə fəaliyyəti çərçivəsində malların və xidmətlərin istehsalı, bölgüsü, mübadiləsi və istehlakı arasında qarşılıqlı təsirin yeniləşmiş sistemi formalaşmışdır. Bu yenilənmə təkrar istehsala dair tarixən formalaşmış nəzəri baxışlardan bəhrələnmişdir. Belə ilkin elmi-nəzəri fikirləri J.B.Sey, C.M.Keynes, C.Mill, A.Smit, D.Rikardo, K.Marks, A.Marşall, K.Menqer, E.Bem-

Baverk, A.Tyurqo, Q.Qossen, İ.Bentom, M.Veber və s. tədqiqatlarında müşahidə etmək olar.

Milli təkrar istehsalın ayrı-ayrı mərhələlərinin iqtisadi artıma təsirinin tədqiqinə Azərbaycanın iqtisadçı alimlərindən Z.Ə.Səmədzadə, N.M.İmanov, Ə.X.Nuriyev, T.H.Hüseynov, İ.A.Kərimli, Ş.M.Muradov, T.N.Əliyev, A.Ş.Şəkərəliyev, M.A.Əhmədov, G.Z.Yüzbaşıyeva, Ə.P.Babayev, İ.H.Alıyev, Ə.C.Muradov, Ə.Q.Əlirzayev, H.B.Rüstəmbəyov, S.M.Mikayılova, Ə.İ.Bayramov, Ü.Q.Əliyev, Q.N.Manafov və digərlərinin tədqiqatlarında xüsusi diqqət verilmişdir.

Milli təkrar istehsal prosesində istehsal amillərinin qarşılıqlı təsirinin öyrənilməsinə, bazarın və istehlakçıların istehsal prosesinin təkmilləşməsinə təsirinin həmin prosesdə baş verən struktur dəyişikliyi ilə əlaqədar milli iqtisadi artımın sürətlənməsinin tədqiqinə qərb iqtisadçı alimlərindən F.List, R. Solou, P.Samuelson, C.Mil, R.Jenes, Q.Saymon, R.Koyz, D.Nort, H.Kondratev, Leonid Qutvitz, Rocer Mayerson, Erik Meskin, R.Hausman, D.Rodrik və s. əsərlərində geniş yer verilmişdir.

Aparılmış tədqiqat işlərində problemin ayrı-ayrı cəhətləri öyrənilmiş, elmi və təcrübi istiqamətdə dəyərli nəticələr əldə olunmuşdur. Lakin dəyişən iqtisadi şəraitə uyğun ölkədə istehsalın genişlənmiş miqyasda təkrarlanması prosesini təmin etmək baxımından milli iqtisadi inkişafın sürətlənməsinə təsir edən amillərin sistemləşdirilərək öyrənilməsi üçün kompleks qiymətləndirmə metodlarından istifadəyə ehtiyac yaranmışdır. Aparılan bu tədqiqatın sistemliliyi və dinamizmi kifayət qədər fərqlənir, Azərbaycanın milli iqtisadiyyatında geniş təkrar istehsalın fasiləsizliyinin təminatını nəzərə alaraq ölkədə milli iqtisadi inkişafın davamlı artması, makroiqtisadi əlaqələr sistemində təkrar istehsal mərhələlərinin qarşılıqlı təsiri məsələlərinin öyrənilməsinə daim ehtiyac olduğu müəyyən edilmişdir. Bütün bunlar tədqiqatın mövzusunun seçilməsini, onun məqsəd və vəzifələrinin müəyyənləşdirilməsini şərtləndirmişdir.

**Tədqiqat işinin obyekti** olaraq Azərbaycanın milli təkrar istehsal prosesi ilə ölkənin milli iqtisadi inkişafının qarşılıqlı əlaqəsi seçilmişdir.

**Tədqiqat işinin predmetini** milli təkrar istehsal prosesinin və onun ayrı-ayrı sferalarının milli iqtisadi inkişafa təsiri ilə əlaqədar formalaşan iqtisadi münasibətlər təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqat işinin məqsədi, Azərbaycanın milli iqtisadiyyatında təkrar istehsalın iqtisadi mexanizminin fəaliyyətini, onun milli iqtisadi inkişafın sürətlənməsinə təsirinin səmərəli yollarının tapılmasına imkan verən nəzəri və təcrübi problemləri müasir şəraitə uyğun təhlil edib, zəruri iqtisadi ümumiləşdirmələr aparmaqla milli təkrar istehsalın səmərəliliyinin yüksəldilməsi istiqamətində konkret tədbirləri hazırlamaqdır.

Dissertasiya işində aşağıdakı vəzifələr qarşıya qoyulmuş və məntiqi ardıcıllıqla yerinə yetirilmişdir:

- Təkrar istehsal prosesinin nəzəri-konseptual əsasları müasir dövr və perspektiv inkişaf istiqamətində tədqiq olunması zəruriliyinin qiymətləndirilməsi;
- milli təkrar istehsal prosesinin formalaşması və müasir inkişaf xüsusiyyətlərinə dair elmi yanaşmaların araşdırılması;
- təkrar istehsal prosesində bazari mexanizminin formalaşması və işləməsinin ümumi prinsiplərinin öyrənilməsi;
- təkrar istehsalda milli iqtisadi inkişaf səviyyəsinin mövcud vəziyyətinin təhlil edilməsi;
- Azərbaycan iqtisadiyyatında təkrar istehsalın bazar mexanizminin təkmilləşdirilməsi ilə milli iqtisadi artımın sürətləndirilməsi yollarının tapılması;

**Tədqiqat metodları.** Tədqiqat prosesində Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, Mərkəzi Bankı, İqtisadiyyat Nazirliyi, Dünya Ticarət Təşkilatı və digər beynəlxalq qurumların statistik məlumatlarından, eyni zamanda, elmi abstraksiya, qruplaşdırma, təhlil-sintez, induksiya-deduksiya, müqayisəli və sistemli təhlil, ekonometrik modelləşdirmə, iqtisadi-riyazi üsul və metodlarından istifadə edilmişdir.

**Müdafiəyə çıxarılan əsas müddəalar:**

- müstəqil iqtisadi inkişaf yolu ilə gedən ölkələrin özlərinin təbii və

iqtisadi potensialından necə istifadə etmələri və həmin potensialın milli iqtisadi inkişaf səviyyəsinə təsirini xarakterizə edən ən ümumiləşdirici milli iqtisadi göstəricilərin dəqiqləşdirilməsinə və onların təhlilinə daha real yanaşılmışdır;

- Azərbaycanda istehsalla bazarın qarşılıqlı əlaqəsinin möhkəmləndirilməsinin əsasında idxal olunan malların və xidmətlərin milli istehsal malları və xidmətləri ilə əvəz olunması dayanır. Bu cür əlaqənin yaranması ölkədə qeyri-neft sektorunun, xüsusən də qeyri-neft sənaye sahələrinin gələcək inkişafı ilə bağlıdır;
- milli iqtisadiyyatda təkrar istehsalın intensiv amillərinin artması və onların təsirinin güclənməsi bölgü sferasının fəallığı ilə bağlıdır ki, bundan da ölkədə gəlirlərin formalaşması və ədalətli bölgüsü qaydaları asılı olur;
- həm xarici, həm də daxili mənbələr hesabına ölkədə investisiya fəallığının artımı və sahibkarlıq fəaliyyətinin genişlənməsi milli iqtisadi inkişafın təkrar istehsal mərhələlərinin qarşılıqlı əlaqələnməsi və şərtlənməsinin üzvi birləşməsindən asılılığı daha çox artırır;
- milli iqtisadi inkişafa geniş təkrar istehsalın intensiv amillərinin təsirində istər idxalın əvəz olunması və istərsə də ixrac yönumlu sənayeləşdirmə strategiyasının oynadığı rolu qiymətləndirərkən belə nəticəyə gəlmək olar ki, Azərbaycanın ixracyönümlü sənayeləşdirmə strategiyasını seçməsi daha uğurludur və bu seçim hazırda dünyada özünü doğruldan liberallaşma strategiyasına uyğun gəlir.

**Tədqiqatın elmi yeniliyi.** Azərbaycan Respublikasında iqtisadi inkişafa bazar mexanizminin təsirinin araşdırılmasına imkan verən nəzəri-metodoloji ümumiləşdirmələr, təhlil və qiymətləndirilmə, həmçinin müəllif tərəfindən əldə edilən mühüm yeniliklər aşağıdakılardır:

- Milli iqtisadi inkişaf səviyyəsinin yüksəlməsini şərtləndirən təkrar istehsalın intensiv amilləri sistemləşdirilmiş, milli iqtisadi inkişafa birbaşa təsir edən başlıca intensiv amillər aşkara çıxarılmışdır;
- Azərbaycanın milli iqtisadiyyatında təkrar istehsalın bazar

mexanizminin əsas struktur elementlərinin təkmilləşdirilməsi istiqamətləri aşkarlanmış, həmin elementlərin fəal və səmərəli işləmələrinə dair nəzəri-təcrübi əhəmiyyətə malik konkret təkliflər verilmişdir;

- Azərbaycanda milli iqtisadi inkişaf səviyyəsinin mövcud vəziyyəti təhlil edilərək iqtisadi inkişafa təsir göstərən əsas amillərin ekonometrik təhlili aparılmış və konkret nəticələrə gəlinmişdir. Ekonometrik təhlilin nəticələrinə görə: daxili investisiyaların 1 milyon manat artması ÜDM–i 5 milyon manat, xarici investisiyaların 1 milyon manat artması ölkə üzrə ÜDM–i 4,83 milyon manat, büdcə gəlirlərinin 1 milyon manat artması ÜDM–i 3,14 milyon manat artırır;
- investisiya qoyuluşları ilə istehlaka yönəldilən resurslar arasında nisbətin səmərəliliyinin artırılmasının Azərbaycanda milli təkrar istehsal prosesinin bazar mexanizminin təkmilləşdirilməsinə təsiri əsaslandırılmışdır;
- milli təkrar istehsalın fasiləsizliyinə təminat verən obyektiv ilkin şərtlər qruplaşdırılaraq təhlil edilmiş, nəticə çıxarılmış təkrar istehsalın sosial yönümünün gücləndirilməsi istiqamətində təkliflər hazırlanmışdır;
- Azərbaycanda milli iqtisadi inkişafın təmin edilməsində daxili investisiya resurslarının tərkibində dövlət və özəl investisiyalarından birgə istifadənin səmərəli yolları müəyyən edilmişdir;
- Azərbaycanın ixrac səbətinin məhdud müxtəlifliyi İM (İqtisadi Mürəkkəblik) indeksi əsasında qiymətləndirilməklə, ixracyönümlü sənayeləşdirmə strategiyasının seçilməsinin zəruriliyi əsaslandırılmışdır.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Tədqiqatın nəzəri əhəmiyyətini təkrar istehsal prosesinin bütün mərhələlərini sistemli öyrənməklə onların qarşılıqlı şərtlənmə halında milli iqtisadi inkişafa təsirinin müasir xüsusiyyətlərinin araşdırılması, təkrar istehsalın bazar mexanizminin fəal işləməsi üzrə investisiya ehtiyatlarının qiymətləndirilməsi istiqamətində nəzəri əsasların inkişaf etdirilməsindən ibarətdir.

Dissertasiyada əsaslandırılan təcrübi müddəalar, təklif və

tövsiyyələr milli iqtisadi inkişafın sürətləndirilməsi zəminində geniş təkrar istehsal prosesinin inkişafı məqsədilə bazar mexanizminin elementlərinin təkmilləşdirilməsinə yönəldilmiş təcrübi məsələlərin emprik qiymətləndirilməsi üçün praktiki əhəmiyyətə malikdir.

Tədqiqatın əsas müddəaları, əldə olunmuş nəticələr və irəli sürülən təkliflər geniş təkrar istehsal prosesinin tənzimlənməsi ilə əlaqədar dövlət proqramlarının hazırlanması prosesində, elmi-tədqiqat işlərində, eyni zamanda ali məktəblərdə uyğun fənnlərin tədrisində istifadə edilə bilər.

**Tədqiqatın aprobasiyası və nəticələrin tətbiqi.** Dissertasiya tədqiqatının nəticələri üzrə 3-ü xaricdə olmaqla, 9 məqalə, 3 konfrans materialı və tezis çap edilmişdir.

Tədqiqat işinin əsas müddəaları, irəli sürülən təklif və tövsiyyələr yerli və beynəlxalq elmi-təcrübi konfranslarda məruzə edilmiş, eləcə də 2015-ci ildə Bakıda keçirilən "Doktorantların və gənc tədqiqatçıların XIX respublika elmi elmi-praktik konfransı"nda məruzə ilə çıxışda müzakirə edilmiş, Təhsil Nazirliyinin Sertifikatına layiq görülmüş, həmçinin 2019-cu ildə Türkiyədə keçirilən "30 Ağustos Bilimsel Araştırmalar Sempozyumu"nda məruzə edilərək sertifikata layiq görülmüşdür.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilat.** Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyası, İqtisadiyyat İnstitutunda yerinə yetirilmişdir.

**Dissertasiyanın həcmi.** Dissertasiyanın I fəsli 81676 işarə, II fəsli 63412 işarə, III fəsli 81126 işarədən, dissertasiya ümumilikdə 240968 işarədən ibarətdir.

## MÜNDƏRİCAT

**GİRİŞ**

**I FƏSİL. TƏKRAR İSTEHSAL PROSESİNDƏ BAZAR MEXANİZMİNİN ÖYRƏNİLMƏSİNİN NƏZƏRİ VƏ METODOLOJİ ƏSASLARI**

1.1. Təkrar istehsal prosesində bazar mexanizminin mahiyyəti və nəzəri əsasları

1.2. Milli təkrar istehsal prosesinin formalaşması və inkişafının müasir xüsusiyyətləri

1.3. Təkrar istehsal prosesində bazar mexanizminin öyrənilməsinin metodoloji əsasları

**II FƏSİL. TƏKRAR İSTEHSAL PROSESİNDƏ BAZAR MEXANİZMİNİN MİLLİ İQTİSADİ İNKİŞAFA TƏSİRİNİN QİYMƏTLƏNDİRİLMƏSİ VƏ TƏHLİLİ**

2.1. Təkrar istehsalda milli iqtisadi inkişafın əsasları və amilləri

2.2. Milli iqtisadi inkişafın təkrar istehsal aspektinin qiymətləndirilməsi

2.3. Milli iqtisadi inkişafa təsir göstərən amillərin ekonometrik təhlili

**III FƏSİL. TƏKRAR İSTEHSALIN BAZAR MEXANİZMİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ VƏ MİLLİ İQTİSADİ İNKİŞAFIN PERSPEKTİVLƏRİ**

3.1. Azərbaycan iqtisadiyyatında təkrar istehsal mexanizmi və milli iqtisadi artımın sürətləndirilməsi istiqamətləri

3.2. Azərbaycanın milli iqtisadi inkişafına bazar mexanizminin təsirinin gücləndirilməsi yolları

3.3. Azərbaycanın milli iqtisadiyyatında təkrar istehsalın bazar mexanizminin təkmilləşdirilməsinin perspektivləri

**NƏTİCƏ**

**İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT**

## MÜDAFİƏYƏ TƏQDİM OLUNAN ƏSAS ELMİ MÜDDƏALAR

**1. Müstəqil iqtisadi inkişaf yolu ilə gedən ölkələrin özlərinin təbii və iqtisadi potensialından necə istifadə etmələri və həmin potensialın milli iqtisadi inkişaf səviyyəsinə təsirini xarakterizə edən ən ümumiləşdirici milli iqtisadi göstəricilərin dəqiqləşdirilməsinə və onların təhlilinə daha real yanaşılmışdır**.

Milli iqtisadi inkişafın müasir səviyyəsinə dərindən fikir verdikdə ilk növbədə milli iqtisadiyyatın nəinki real sektorunda və habelə bütünlükdə iqtisadiyyatda təbii resurslara nisbətən iqtisadi resurslardan daha çox istifadəyə keçidin üstün mövqeyə çıxmasını müşahidə edə bilərik. İqtisadi resurslara keçidin özü real iqtisadi potensiala arxalanmalıdır. Bu potensialın isə özünün bütün cəhətləri ilə, əsasən, bir mənbədən – insan kapitalından qidalanmasının şahidi oluruq.

Milli iqtisadi inkişafın iqtisadi potensialı və ona uyğun olan resursların formalaşması müasir dövrün və gələcəyin prioritetləri hesab edilməlidir Çünki istər ümumilikdə iqtisadi inkişaf və istərsə də ayrılıqda milli iqtisadi inkişaf səviyyəsi ölkənin təbii potensialına nisbətdə onun iqtisadi potensialının həcm və strukturundan, formalaşma dərəcəsi və sürətindən, ondan nə dərəcədə istifadə edilə bilməsi imkanlarından daha çox asılı olur.

Milli iqtisadi inkişafı özündə cəmləşdirən mühüm makroiqtisadi göstərici olmaqla Ümumi Daxili Məhsulun sürəti və keyfiyyəti kimi indikatorlar Azərbaycanın iqtisadi inkişaf tempini açıb göstərə bilir. Belə ki, həmin indikatorların sabit pozitiv meyli 2000-ci ildən başlayaraq Azərbaycan iqtisadiyyatının dünyada aparıcı mövqelər tutmasına səbəb olmuşdur.

**Cədvəl 1. 2000-2019-cu illər ərzində Azərbaycanda ÜDM**

| İllər | ÜDM | | Adambaşına düşən ÜDM | |
|---|---|---|---|---|
| | *milyon manat* | *milyon dollar* | *milyon manat* | *milyon dollar* |
| **2000** | 4718,01 | 5272.8 | 593.2 | 662.9 |
| **2005** | 12522,5 | 13238,7 | 1494,3 | 1579,8 |
| **2010** | 42465,0 | 52909,3 | 4753,0 | 5922,0 |
| **2012** | 54743,7 | 69683,9 | 5966,1 | 7594,3 |
| **2015** | 54380,0 | 52996,8 | 5706,6 | 5561,5 |
| **2017** | 70135,1 | 40867,9 | 7226,0 | 4198,5 |
| **2018** | 79797,3 | 46939,6 | 8126,2 | 4780,1 |
| **2019** | 81896,2 | 48174,2 | 8268,8 | 4864,0 |

**Mənbə:** Cədvəl https://www.stat.gov.az/source/system_nat_accounts/ məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir.

Yuxarıda verilən cədvəl məlumatlarından göründüyü kimi son illərdə Azərbaycanda ÜDM-in və onun Adambaşına düşən miqdarının sabit artımı baş vermişdir. Belə ki, Azərbaycanda 2000-ci ilə nisbətən 2005-ci ildə ÜDM 3 dəfəyə yaxın artmışdısa, 2019-cu ildə bu artım 17 dəfədən çox olmuşdur. Eyni dinamik artımı ÜDM-in Adambaşına düşən miqdarında da müşahidə edə bilərik. Belə ki, 2000-ci ilə nisbətən 2010-cu ildə Adambaşına düşən ÜDM-in 8 dəfə, 2019-cu ildə isə 14 dəfəyə yaxın artımı baş vermişdir (bax: cədvəl 1).

Azərbaycan hökuməti tərəfindən iqtisadi aktivliyin yüksəldilməsi məqsədilə həyata keçirilən davamlı iqtisadi islahatlar nəticəsində yaradılan iqtisadi potensial iqtisadiyyatın dayanıqlığını artırmış, ÜDM-in istehsal sürətinə təkan vermişdir. Mövcud sosial-iqtisadi durumu daha dərindən təhlil etmək üçün ümumi daxili məhsulun sahə strukturuna nəzər salaq (bax: şəkil 1):




**Mənbə:** Azərbaycanın milli hesabları. Bakı: 2020, səh. 8.

**Şəkil 1. 2019-cu ildə Azərbaycanda ÜDM-in iqtisadi fəaliyyət növləri üzrə strukturu (yekuna nisbətən %-lə)**

Şəkil i-in təhlili göstərir ki, 2019-cu ildə ölkə üzrə yaradılan əlavə dəyərin 41,4%-i sənayedə, 10%-i ticarət, nəqliyyat vasitələrinin təmiri sahələrində, 8,7%-i tikintidə, 6%-i nəqliyyat və anbar təsərrüfatı, 5,7%-i kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 2,4%-i turistlərin yerləşdirilməsi və ictimai iaşə, 1,8%-i informasiya və rabitə sahələrində, 16,7%-i isə sosial və digər sahələrdə istehsal edilmişdir. ÜDM-in 7,3 faizini məhsula və idxala xalis vergilər təşkil etmişdir

Göründuyu kimi 2019-cu ildə yaradılan əlavə dəyərin daha böyük hissəsi sənaye sahəsinin payına düşür. Sənaye məhsulunun isə 70%-i mədənçıxarma sektorunda, 25,2%-i emal sektorunda, 4,3%-i elektrik enerjisi, qaz və buxar istehsalı,bölüşdürülməsi və təchizatı sektorunda, 0,7%-i isə su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorunda istehsal olunmuşdur.

Ötən illər ərzində Azərbaycanda ÜDM-in struktur təhlili göstərir ki, neft-qaz sektoru iqtisadi artımın əsas hərəkətverici amili olmuşdur. 2019-cu ildə mədənçıxarma sənayesində ötən illərə

nisbətən daha çox, yəni 28818,1 milyon manatlıq dəyər yaradılmışdır. Lakin bu artım əsasən qaz hasilatı hesabına əldə edilmişdir[1].

Azərbaycanda formalaşmış ümumi daxili məhsulun təkrar istehsalı prosesi ölkənin qurduğu yeni iqtisadi mexanizmin əsas yekunlarından biri hesab edilə bilər. Bu, bir sıra əsaslı iqtisadi islahatların uğurla həyata keçirilməsi hesabına başa gəlmişdir. Milli iqtisadiyyatın prioritet sahələrini bazar münasibətləri dairəsinə salmaqla bütünlükdə iqtisadi inkişafın bazar modeli reallaşmışdır. İqtisadiyyatın aparıcı sahələrinin inkişafının bazar modelini qurmaq çox incə və eyni zamanda milli iqtisadi inkişaf strategiyasını əhatə edən bir prosesdir.

**2. Azərbaycanda istehsalla bazarın qarşılıqlı əlaqəsinin möhkəmləndirilməsinin əsasında idxal olunan malların və xidmətlərin milli istehsal malları və xidmətləri ilə əvəz olunması dayanır. Bu cür əlaqənin yaranması ölkədə qeyri-neft sektorunun, xüsusən də qeyri-neft sənaye sahələrinin gələcək inkişafı ilə bağlıdır.**

İstehsalla bazarın qarşılıqlı təsiri formalarının nəzəri cəhətdən öyrənilməsi zəruriliyi, hər iki sferaya yeni yanaşmanı tələb edir, qarşılıqlı təsirin əsaslandırılması məsələsini irəli atır. İstehsalla bazarın qarşılıqlı əlaqəsinin möhkəmləndirilməsində məcmu təklif və məcmu tələbin strukturca əlaqələnməsinin böyük rolu vardır. Azərbaycanda 2005-2018-ci illərdə öz əksini tapan həmin göstəricilərə, onların struktur və dinamikasına diqqət vermək lazımdır. Belə ki, respublika daxilində istehsal olunan malların və xidmətlərin təklif olunan məbləğinin illər üzrə artımı baş verməkdədir. (bax: cədvəl 2).

---

[1] Azərbaycanın Milli hesabları // Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi. Statistik məcmuə. – Bakı: Rəsmi nəşr, – 2020, – 139 s.

**Cədvəl 2. 2005-2018-ci illər ərzində Azərbaycanda Məcmu tələb və Məcmu təklifin uyğunluq balansı (milyon manat)**

| | **2005** | **2010** | **2015** | **2018** |
|---|---|---|---|---|
| Daxili istehsalın təklifi | 20252 | 57797,5 | 78991,1 | 111946,2 |
| İdxal təklifi | 6624,5 | 8782,3 | 18927,9 | 30098,8 |
| Məcmu təklif | 26877,5 | 66579,8 | 97919 | 142045 |
| Milli bazarın tələbi | 12 115,8 | 40 811,1 | 53266,8 | 78126,4 |
| Məcmu tələb | 19997,6 | 63871,6 | 73819,6 | 78179,6 |

**Mənbə:** Cədvəl Azərbaycanın statistik göstəriciləri. Bakı: 2019 və Azərbaycanın Milli hesabları. Bakı: 2019- məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir.

Cədvəl 2-nin məlumatlarından görünür ki, Azərbaycanda 2018-ci ildə daxili tələb 2005-ci ilə nisbətən müqayisəli qiymətlərlə 6,4 dəfə artmışdır. 2005-ci ildə daxili tələbin 54,6%-i, 2010-cu ildə 21,5%-i, 2015-ci ildə 35,5%-i, 2018-ci ildə isə 38,5%-nin idxal təklifi hesabına ödənilməsi onu göstərir ki, Azərbaycanda daxili istehsal təklifi kəmiyyət ifadəsində artsa da, bu artım bir istiqamətli olmaqla (neft-qaz sektoru) ixrac meylli olmuşdur. Daxili bazara yönələn istehsal təklifinin tərkibində isə əhalinin əsas istehlak xərclərini təşkil edən ərzaq, qida, geyim, nəqliyyat və texniki-texnoloji vasitələrin və s. kimi əmtəələrin çatışmaması idxalı stimullaşdırmışdır. Lakin son illərdə idxalın ümumi istehlakda xüsusi çəkisinin nisbətən azalması ilk növbədə milli məhsulların istehsalının müsbət meyli ilə əlaqələndirmək olar.(bax: cədvəl 2)

2014-cü ildən başlayaraq dünya əmtəə bazarlarında enerji daşıyıcılarının qiymətinin kəskin enməsi, ölkə iqtisadiyyatının neft gəlirlərindən asılılığnı aradan qaldırmaq və qeyri-neft sektorunu inkişaf etdirmək məqsədilə çoxşaxəli və ardıcıl iqtisadi islahatların aparılmasını stimullaşdırdı. Ardıcıl iqtisadi islahatları aparmaqda məqsəd ölkədə emal sənayesinin və kənd təsərrüfatının prioritet sahələrinin rəqabətqabiliyyətli məhsullar istehsalı həcmini artırmaqla idxal olunan mall və xidmətlərin əvəzlənməsinə təminat vermək,

daxili məcmu tələbi milli istehsal təklifi ilə ödəmək imkanına malik olmaqdır.

Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli fərmanı ilə təsdiq edilən "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"-də Azərbaycanın milli iqtisadiyyatında qeyri-neft sektorunun prioritet sahələrinin rəqabətqabiliyyətliliyini nəinki qoruyub saxlamaq və habelə onun gücləndirlilməsini davamlı etmək üçün xarici investisiyalardan səmərəli istifadə edilməsi məsləsinin həllinin ön sıraya çıxarılması diqqəti daha çox cəlb edir[1]. Bunun üçün xarici investisiyalar yatırılacaq milli iqtisadiyyatın prioritet sahələrinin istehsal-təsərrüfat spesifikliyi, aralıq və son məhsul buraxılışının təyinatına uyğun beynəlxalq investisiya layihələrinin düzgün seçilməsinə daha çox diqqət yetirməklə yerli firma və şirkətlərin iştirakına dəstək gücləndirilməlidir. Yalnız bu yolla daha perspektivli və reytinqli investisiya yatırımları ilə Azərbaycanda dayanıqlığı artan rəqabətqabiliyyətli qeyri-neft sektorunun prioritet sahələri yaradıla bilər.

**3. Milli iqtisadiyyatda təkrar istehsalın intensiv amillərinin artması və onların təsirinin güclənməsi bölgü sferasının fəallığı ilə bağlıdır ki, bundan da ölkədə gəlirlərin formalaşması və ədalətli bölgüsü qaydaları asılı olur.**

Milli iqtisadiyyatda təsərrüfat subyektlərinin və əhalinin müxtəlif mallara və xidmət növlərinə olan tələbatının ödənilməsinə təminat verən, eyni zamanda milli istehsalın inkişafının yeganə mənbəyi olan milli gəlirin artımıdır. Milli gəlirin müntəzəm artımı bütünlükdə ölkədə sahibkarlıq fəaliyyətinin inkişafı, ayrılıqda əhalinin hər nəfərinin rifahının yaxşılaşdırılması üçün milli təkrar istehsal prosesinin, onun bölgü sferasının səmərəli fəaliyyətinin əsas göstəricisidir.

---

[1] Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər // Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 02 fevral tarixli Fərmanı ilə təsdiq edilmişdir. – Bakı, – 2021




| 2000 | 2005 | 2008 | 2010 | 2015 | 2017 | 2018 | 2019 |
|---|---|---|---|---|---|---|---|
| 4633.5 | 11094.2 | 36012.5 | 39922.2 | 52641.2 | 67678.6 | 76251 | 78721.4 |

**Mənbə:** Diaqram Azərbaycanın Milli hesabları, Bakı: 2020, səh.19 - məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir.

**Şəkil 2. 2000-2019-cu illər üzrə Azərbaycanda Milli Gəlirin (MG) artım dinamikası (milyon manat)**

Diaqram məlumatları göstərir ki, 2000-ci ilə nisbətən 2010-cu ildə MG 8,6 dəfə, 2015-ci ildə 11,3 dəfə, 2019-cu ildə isə 17 dəfə artaraq yüksək artım dinamikasına malik olmuşdur (bax: şəkil 2).

Azərbaycanın milli iqtisadiyyatında təkrar istehsalın bazar mexanizminin təkmilləşdirilməsinin daha konkret istiqaməti investisiya qoyuluşları ilə istehlaka yönəldilən resurslar arasında nisbətin səmərəliliyini artırmaqdır. Yığımın investisiyalaşması prosesinin əhalinin güzəranının yaxşılaşması ilə əlaqələnməsi ölkənin milli iqtisadi inkişaf səviyyəsindən müasir texnika və texnologiyanın istehsala tətbiqi dərəcəsindən asılı olaraq konkret tarixi şəraitdə daha aydın ifadə olunur. Burada yığım normasının hesablanması və bununla uyğun iqtisadi göstəricilərdən istifadə edilməsi lazım gəlir.

$$Y_N = \frac{İ_{MA} + İ_{TS} + İ_{İK}}{ÜMD} \quad (1)$$

Burada, $Y_N$ –*yığımın norması;*
$İ_{MA}$ – *maşın və avadanlıqların yaradılmasına yönəldilən investisiyalar;*
$İ_{TS}$ – *təbii sərvətin artırılmasına yönəldilən investisiyalar;*
$İ_{İK}$ – *insan kapitalının yaradılmasına yönəldilən investisiyalar;*
ÜDM – *ümumi daxili məhsuldur.*

Yığım norması elə olmalıdır ki, yeni yaradılacaq maşın və avadanlıqların, tikiləcək sənaye obyektlərinin, bərpa olunan təbii sərvətlərin və mütərəqqi təhsilin artım sürəti, aşınan və köhnələnlərin sıradan çıxması sürətini qabaqlamağa imkan versin. Belə imkan sözsüz ki, yığım normasının ölkənin əsasən iqtisadi resurslarının artırılmasına və bununla da iqtisadi potensialın aşkara çıxarılmasına istiqamət götürür.

**Cədvəl 3. Azərbaycan iqtisadiyyatında milli gəlirin investisiya qoyuluşları və istehlak üçün istifadəsi**

| Göstəricilər | 2005 | 2010 | 2012 | 2015 | 2017 | 2019 |
|---|---|---|---|---|---|---|
| faizlə | | | | | | |
| İnvestisiya və istehlaka ayrılan milli gəlir | 100 | 100 | 100 | 100 | 100 | 100 |
| o cümlədən: istehlak | 80,7 | 75 | 70,6 | 83,7 | 91,8 | 90 |
| investisiya və digər məsrəflər | 19,3 | 25 | 29,4 | 16,3 | 8,2 | 10 |

**Mənbə:** Cədvəl Azərbaycanın statistik göstəriciləri. Bakı: 2020, səh.122- məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir.

Cədvəl 3. məlumatlarından görünür ki, Azərbaycanda milli gəlirin bölgüsündə investisiya qoyuluşuna ayrılan qeyri-bərabər dəyişmə dinamikasına malikdir. Belə ki, 2005-2012-ci illərdə ölkənin milli gəlirindən investisiyalara yönəldilən hissə orta hesabla 25%

təşkil etmiş, lakin 2012-2019-ci illərdə milli gəlirin dinamik artımı baş versə də, onun investisiya qoyuluşuna ayrılan hissəsi azalaraq 2015-ci ildə 16,3%-ə, 2017-ci ildə 8,2%-ə, 2019-cu ildəisə 10%-ə bərabər olmuşdur.

Düstur 1. əsasında hesablama apardıqda məlum olur ki, 2005-ci ildə $Y_N$=0,12; 2010-cu ildə $Y_N$=0,14; 2015-ci ildə $Y_N$=0,12; 2017-ci ildə $Y_N$=0,05; 2019-cu ildə isə $Y_N$=0,07-ə bərabər olmuşdur. Yığım normasının aşağı səviyyəsi bir daha təsdiq edir ki, Azərbaycanda təkrar istehsal prosesinin bazar mexanizminin təkmilləşdirilməsinin əsas istiqaməti investisiya qoyuluşları ilə, istehlaka yönəldilən resurslar arasında nisbətin səmərəliliyinin artırılmasıdır. İlk növbədə, milli istehsala yönəldilən investisiyaların səmərəliliyinin artımına imkan yaratmaqla istehsalda əmək məhsuldarlığının artımına nail olmaq olar. Çünki, hər iki proses mövcud texnika-texnologiya, işçi qüvvəsi və digər istehsal amilləri səviyyəsində milli gəlirin artımına səbəb olur. Milli iqtisadi fəaliyyətin bütün sahələrində əməyin səmərəliliyinin artırılması investisiya resurslarını yalnız canlı əməyə qənaət etməklə deyil, həmçinin onun texnika ilə silahlanmasının artımı hesabına daha çox arta bilər.

**4. Həm xarici, həm də daxili mənbələr hesabına ölkədə investisiya fəallığının artımı və sahibkarlıq fəaliyyətinin genişlənməsi milli iqtisadi inkişafın təkrar istehsal mərhələlərinin qarşılıqlı əlaqələnməsi və şərtlənməsinin üzvi birləşməsindən asılılığı daha çox artırır.**

İqtisadi artım iqtisadi inkişafa doğru bir addımdır – onun kəmiyyət tərəfini ifadə edən əsas şərtidir, lakin heç bir halda iqtisadi artım inkişafın özü demək deyildir. Cədvəl 4-də Azərbaycanda 2000-2018-ci illər üzrə milli iqtisadi inkişafı xarakterizə edən statistik məlumatlar əks olunmuşdur.

**Cədvəl 4. Milli iqtisadi inkişafı əks etdirən iqtisadi göstəricilərin zaman sıraları**

| İllər | ÜDM (mln. manat) | İqtisadiyyata yönəldilmiş daxili investisiyalar (mln.manat) | İqtisadiyyata yönəldilmiş xarici investisiyalar (mln. manat) | Dövlət büdcəsinin gəlirləri (mln. manat) | Qeyri-neft sektorunda ÜDM istehsalı (cari qiymətlərlə, mln.manat) |
|---|---|---|---|---|---|
| **2000** | 4718,1 | 460,3 | 829,5 | 714,6 | 3693,9 |
| **2001** | 5315,6 | 437,7 | 1016,8 | 784,8 | 4447,6 |
| **2002** | 6062,5 | 546,1 | 2172,8 | 910,2 | 5242,5 |
| **2003** | 7145,5 | 938,3 | 3311,0 | 1220,9 | 6055,1 |
| **2004** | 8531,2 | 1324,0 | 4496,3 | 1509,5 | 7630,0 |
| **2005** | 12522,1 | 2104,9 | 4628,5 | 2055,2 | 10576,1 |
| **2006** | 18746,4 | 2901,4 | 4514,2 | 3868,8 | 15197,3 |
| **2007** | 28360,3 | 4626,7 | 5727,2 | 6006,6 | 16726,0 |
| **2008** | 40136,1 | 7702,2 | 5625,8 | 10762,7 | 19179,0 |
| **2009** | 35600,2 | 6079,9 | 4395,1 | 10325,9 | 23196,1 |
| **2010** | 42464,7 | 7499,2 | 6619,7 | 11403,0 | 26864,4 |
| **2011** | 52083,2 | 10199,0 | 6849,8 | 15700,7 | 30525,9 |
| **2012** | 54745,2 | 12148,3 | 8102,7 | 17281,5 | 33195,9 |
| **2013** | 58183,1 | 13178,9 | 8269,3 | 19496,3 | 34138,8 |
| **2014** | 59015,3 | 12715,0 | 9175,6 | 18400,6 | 35951,1 |
| **2015** | 54353,4 | 9058,5 | 10998,9 | 17498,0 | 40328,0 |
| **2016** | 60425,2 | 6490,3 | 16216,1 | 17505.7 | 35951,1 |
| **2017** | 70337,8 | 8765,2 | 15697,3 | 16516,7 | 40328,0 |
| **2018** | 79797,3 | 11874,9 | 14002,1 | 22508,9 | 41510,5 |

**Mənbə:** Cədvəl www.stat.gov.az məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir

Cədvəl 4-də əks olunmuş zaman sıralarının əsasında asılı dəyişən olaraq seçdiyimiz ÜDM-ə (Y), təsiredici faktorlar rolunu oynayan: İqtisadiyyata yönəldilmiş daxili investisiyaların ($X_1$), İqtisadiyyata yönəldilmiş xarici investisiyaların ($X_2$), Dövlət büdcəsinin gəlirlərinin ($X_3$) və Qeyri–neft sektorunda ÜDM istehsalının ($X_4$) göstərdiyi təsir kəmiyyətcə qiymətləndirilmişdir.

Dissertasiyada zaman sıraları əsasında ekonometrik tədqiqatlar aparmaq üçün ilk mərhələdə asılı dəyişən olaraq seçdiyimiz ÜDM-ə ayrı–ayrı faktorların göstərdiyi təsiri kəmiyyətcə xarakterizə edən $Y = b_0 + b_1 x + \varepsilon$ cüt reqressiya modelləri qurulmuş, daha sonra isə bu asılı dəyişənə bütün faktorların birgə təsirini əks etdirən $Y = b_0 + b_1 x_{i1} + b_2 x_{i2} + b_3 x_{i3} + b_4 x_{i4} + \varepsilon$ çox reqressiya modeli formalaşdıralaraq və onun keyfiyyət göstəriciləri və proqnozlaşdırma üçün yararlılığı qiymətləndirilmişdir.

Cədvəl 4-də əks olunmuş göstəricilər əsasında Eviews proqram paketlərinin köməyi ilə alınmış əlaqə tənlikləri və onların xarakteristikaları aşağıdakı cədvəldə yerləşdirilmişdir:

**Cədvəl 5. Ümumi Daxili Məhsulun təsiredici faktorlardan asılılığının cüt reqressiya modelləri**

| **İzahedici faktorlar** | **Əlaqə tənlikləri** | **Determinasiya əmsalı** | **Korrelyasiya əmsalı** | **Fişer kriteriyası** |
|---|---|---|---|---|
| İqtisadiyyata yönəldilmiş Daxili investisiyalar ($X_1$) | **Y**=5415.926+5.003247 $X_1$ | 0.85 | 0.92 | 94.49 |
| İqtisadiyyata yönəldilmiş xarici investisiyalar ($X_2$) | **Y**=3060.695+4.828078 $X_2$ | 0.79 | 0.88 | 63 |
| Dövlət büdcəsinin gəlirləri ($X_3$) | **Y**=4624.451+3.140211 $X_3$ | 0.97 | 0.98 | 473.77 |
| Qeyri–neft sektorunda ÜDM istehsalı ($X_4$) | **Y**=-3257.399+1.766654 $X_4$ | 0.96 | 0.97 | 407.40 |

Apardığımız ekonometrik tədqiqatın nəticəsinə əsasən tərtib etdiyimiz ÜDM–in iqtisadi reqressorlardan asılılığının cüt reqressiya modellərinin keyfiyyət xarakteristikaları kifayət qədər yüksəkdir və onlar proqnozlaşdırma üçün yararlı mexanizmlər hesab edilə bilərlər.

Ekonometrik təhlilə əsasən müəyyən edilmişdir ki, prosesə əsas təsiri daxili və xarici investisiyalar ($X_1$ və $X_2$) və dövlət büdcəsinin gəlirləri ($X_3$) göstərir. Digər reqressorun ($X_4$) ÜDM-ə təsiri özünü açıq şəkildə biruzə vermir və əlavə tədqiqatlar aparılmalıdır. Belə ki, cüt reqressiya modelinin iqtisadi mənasına görə daxili investisiyaların 1 milyon manat artması ÜDM–i 5 milyon manat, xarici investisiyaların 1 milyon manat artması ölkə üzrə ÜDM–i 4,83 milyon manat, büdcə gəlirlərinin 1 milyon manat artması ÜDM–i 3,14 milyon manat artırır.

Apardığımız ekonometrik təhlil bir daha onu göstərdi ki, həm xarici, həm də daxili mənbələr hesabına ölkədə investisiya fəallığının artımı və sahibkarlıq fəaliyyətinin inkişafı milli iqtisadi inkişafın təkrar istehsal bazasının formalaşması nöqteyi-nəzərindən olduqca mühüm əhəmiyyət kəsb edir. Milli investisiyalara daha geniş meydan verərək əsas kapitala yönəldilən milli investisiyaların xüsusi çəkisini artırmaqla milli təkrar istehsalın inkişafına, bununla da, milli iqtisadi inkişafın sürətləndirilməsinə nail olmaq mümkündür.

**5. Milli iqtisadi inkişafa geniş təkrar istehsalın intensiv amillərinin təsirində istər idxalın əvəz olunmasi və istərsə də ixrac yönümlu sənayeləşdirmə strategiyasının oynadığı rolu qiymətləndirərkən belə nəticəyə gəlmək olar ki, Azərbaycanın ixracyönümlü sənayeləşdirmə strategiyasını seçməsi daha uğurludur və bu seçim hazırda dünyada özünü doğruldan liberallaşma strategiyasına uyğun gəlir.**

Milli iqtisadi inkişafa təkrar istehsalın genişlənmiş miqyasda intensiv artımının təsirində hər iki sənayeləşdirmə strategiyasının oynadığı rolu qiymətləndirərkən belə nəticəyə gəlmək olar ki, Azərbaycanın ixracyönümlü sənayeləşdirmə strategiyası seçməsi daha uğurludur və bu seçim hazırda dünyada özünü doğruldan azad ticarət qaydalarına uyğun gəlir. Bu strateji xətt həm daxili və həm də xarici bazarlara mallar və xidmətlər çıxarmaq imkanı yaradır. Ümumilikdə Azərbaycanın milli iqtisadi inkişafına xarici ticarət amillərinin təsiri ilə əlaqədar strateji sənayeləşdirmə əhatəsində özünü göstərən dövlətin intensiv müdaxiləsi diqqətlə nəzərə alınmalıdır.

Harvard universitetinin professorları R.Hausmann, J.Hwang və D.Rodrik tərəfindən 2005-ci ildə məhsuldar biliklərin bir ölkənin istehsal etdiyi məhsulların tərkibində əks olunduğu ehtimalına əsaslanaraq, müxtəlif və mürəkkəb məhsuldarlıq qabiliyyətlərini ölçə və müqayisə edə bilən, ölkədə ixracın müxtəlifliyi ilə iqtisadi artım arasında əlaqəni öyrənən İqtisadi Mürəkkəblik İndeksini qurdular. Onların fikrincə ölkədə ixracın xarakteri və tərkibi əhəmiyyətli ola bilər, lakin ixrac səbəti kəmiyyətcə çox, çeşidcə müxtəlif son məhsullardan ibarət olmadıqca nə ixtisaslaşma, nə də diversifikasiya iqtisadi artıma kömək etmir.

**Cədvəl 6. Dünya ölkələrinin İqtisadi Mürəkkəblik İndeksi**

| Ölkələr | İllər | | | | | |
|---|---|---|---|---|---|---|
| | 1993-1997 | | 2003-2007 | | 2013-2017 | |
| | İMİ | Yerləşmə sırası | İMİ | Yerləşmə sırası | İMİ | Yerləşmə sırası |
| **Azərbaycan** | 0.440148 | 38 | -1.08907 | 106 | -0.654587 | 84 |
| **Yaponiya** | 2.53902 | 1 | 2.34652 | 1 | 2.30938 | 1 |
| **Almaniya** | 2.2561 | 2 | 2.0148 | 2 | 2.07537 | 3 |
| **Cənubi Koreya** | 1.1494 | 19 | 1.54709 | 10 | 1.77613 | 6 |
| **Sinqapur** | 0.9837 | 21 | 1.5565 | 9 | 1.86534 | 4 |
| **Çin** | 0.328308 | 41 | 0.632635 | 34 | 0.69130 | 33 |
| **Norveç** | 0.8298 | 24 | 0.660506 | 32 | 1.09466 | 22 |
| **Rusiya** | 0.469322 | 35 | 0.510294 | 41 | 0.85204 | 27 |
| **Turkiyə** | 0.099291 | 53 | 0.413431 | 43 | 0.175726 | 52 |
| **Səudiyyə Ərəbistanı** | -0.142044 | 64 | -0.153061 | 62 | 0.747155 | 29 |
| **Gürcüstan** | 0.20617 | 45 | 0.257126 | 71 | 0.0587891 | 63 |
| **Türkmənistan** | -0.613978 | 79 | -0.917194 | 98 | 1.19506 | 112 |

**Mənbə:**Cədvəl https://oec.world/en/rankings/country/eci/?year_range=2013-2017-məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir.

Cədvəl 6. məlumatları göstərir ki, Yaponiya, Almaniya, Norveç kimi iqtisadi cəhətdən inkişaf etmiş ölkələrdə İMİ-də yüksəkdir. Artıq uzun illərdir ki, İMİ reytinqindəki mövqeyi dəyişməz qalan Yaponiyada dövlətin iqtisadi siyasəti daha yüksək əlavə dəyər yaradan elm tutumlu sahələrin inkişafına istiqamətlənmişdir. Yaponiyada müharibədən sonrakı illərdən başlayaraq İnsan amili ön xəttə çəkilərək milli prioritetlərin seçilməsi ilə iqtisadiyyatın sürətli diversifikasiyasına başlanılmışdır.

Azərbaycan İMİ reytinqində 133 ölkə arasında ən mürəkkəb 84-cü ölkə olaraq qərarlaşıb (bax: cədvəl 6). Bu ölkəmizin ixrac səbətinin məhdud müxtəlifliyini əks etdirir.




**Mənbə:** Diaqram http://atlas.cid.harvard.edu məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir.

**Şəkil 3. 1996-2017-ci illər ərzində Azərbaycanın ixrac səbətinin dəyişməsi**

Şəkil 3. məlumatları göstərir ki, Azərbaycanın ixrac səbətində mədənçıxarma sənayesi məhsulları üstünlük təşkil edir. Bu mənzərə yüksək iqtisadi artım tempinin bir istiqamət üzrə, yəni nef-qaz sektoru üzrə əldə olunmasını əks etdirir. Eyni zamanda, son 10 ildə ixrac səbətimizdə xidmət sektorunun, xüsusən də İKT, nəqliyyat və turizm sektorları üzrə artımını müşahidə edirik. Ölkədə informasiya və bilik iqtisadiyyatının yaradılması, iqtisadiyyatın ayrı-ayrı sahələri üzrə səmərəliliyin artırılması, rəqabətqabiliyyətli və keyfiyyətli

məhsul istehsalı üçün xidmət sektorunun, xüsusən İKT sahəsinin inkişafı istiqamətində sistemli siyasət aparılmışdır. Belə ki, Azərbaycan Respublikası Prezidenti İlham Əliyev tərəfindən 2003-cü il 17 fevral tarixində "Azərbaycan Respublikasının inkişafı naminə informasiya və kommunikasiya texnologiyaları üzrə Milli Strategiya"nın, 2005-ci il 21 oktyabr tarixində "Azərbaycan Respublikasında rabitə və informasiya texnologiyalarının inkişafı üzrə Dövlət Proqramı"nın qəbulu, 2013-cü ilin "İnformasiya-kommunikasiya texnologiyaları ili" elan edilməsi ölkəmizdə İKT sahəsinin inkişafına təkan vermişdir. Azərbaycanda davamlı və dayanıqlı inkişafı prioritet istiqamətlərindən olan İKT sahəsinin inkişafı və ixrac yönümlü məhsulların istehsalının artırılması məqsədilə iqtisadi fəaliyyətin e-hökumət, e-ticarət kimi yeni formalarının yaradılmış, Cənubi Qafqazda ilk və yeganə peyk operatoru olan "Azərkosmos" təsis edilmişdir. "Azərspace-1", "Azərsky", "Azərspace-2" kimi 3 peykə sahib olmaqla öz informasiya təhlükəsizliyini təmin etmək və dünya bazarına xidmət ixrac edən bir ölkəyə çevrilmək əsas strateji hədəflərimizdəndir.

Milli iqtisadi inkişafın sürətləndirilməsinə təkrar istehsalın genişlənmiş miqyasda intensiv artımının təsir imkanlarının çoxaldılması üçün strateji sənayeləşdirmə yoluna qısa zamanda düşmək çox vacibdir. Bu yolda əsas kapitalın investisiyalaşması prosesi ön sıraya çıxarılmalı, çoxsaylı mülkiyyət subyektlərinə yönəldilən investisiyaların və kapitalların məhsuldar səyləri ilə maliyyə resurslarının qarşılaşması arasında yaranan qaydalara əməl edilməlidir. Yalnız belə halda iqtisadi artım milli bazar təsərrüfatının inkişafını ifadə etməklə, iqtisadiyyatın və ixracın diversifikasiyası nəticəsində ümumi milli məhsulun real artımını və milli iqtisadi inkişafın sürətlənməsini təmin edə bilər.

**Dissertasiyada aparılan tədqiqat üzrə aşağıdakı təkliflər irəli sürülmüşdür:**

1. Milli geniş təkrar istehsalın bütün mərhələlərinin normal fəaliyyəti bütünlükdə ölkənin milli iqtisadiyyatının, o cümlədən onun tərkib hissəsi olan milli istehsalın, bu istehsalla qarşılıqlı əlaqələnən istehlakın inkişafında mühüm rola malikdir. Ölkənin təkrar

istehsalının hər hansı bir mərhələsinin, məsələn, istehsal prosesinin, bölgü sisteminin, bazarın və əhalinin istehlakının tərkibində bu və ya digər elementin çatışmaması müvafiq mərhələnin normal fəaliyyətinə, onun digər mərhələlərinin işləmə prosesinə öz mənfi təsirini göstərə bilər. Bu mənada bütünlükdə ölkənin milli iqtisadiyyatının, ayrılıqda isə onun milli iqtisadi artımının dayanıqlığı və davamlı olması üçün milli təkrar istehsalın bütün mərhələlərinin səmərəli təşkilinə, həmçinin milli istehsalın həcmi ilə bazarın tutumu arasında uyğunluğun qurulmasının bütün problemlərinə və onların həllinə kompleks yanaşma tələb edilir.

2. Dövlətin istər milli iqtisadi modernləşmə siyasətinin, istərsə də sosial-iqtisadi inkişafa dair milli prioritetlərinin mahiyyəti və spesifik xüsusiyyətlərinin təhlilinə əsaslanaraq milli təkrar istehsalda mövcud resurslardan səmərəli istifadənin əsas istiqamətlərinin müəyyənləşdirilməsində və reallaşdırılmasında istehsalla bazar arasında qarşılıqlı təsirin fəallaşdırılması vacib şərtlər kimi qiymətləndirilmişdir. Buna görə də müasir bazar iqtisadiyyatının ciddi və kəskin tələbləri nəticəsində ölkədə milli istehsalın sənaye bazasının möhkəmləndirilməsi və inkişafının sürətləndirilməsi, milli istehsalın sosial yönümlülüyünün təmin edilməsi, burada daha səmərəli sosial-iqtisadi inkişaf proqramlarının tətbiq edilməsi lazım gəlir.

3. Azərbaycanın iqtisadi inkişaf reallığını dəqiqləşdirmək, milli sənayeləşdirmə strategiyasının ilkin şərtlərini düzgün formalaşdırmaq və Azərbaycanın post-sənayeləşdirmə mərhələsinə daxil olmasını təmin etmək üçün aqrar sektorda seçilən prioritet təsərrüfat sahələrinin və emal sənaye sahələrinin inkişaf proqramlarına yenidən baxılmasına ehtiyac duyulur. İlk növbədə, hər iki sahədə həyata keçirilən təkrar istehsal prosesinin bütün fazalarının Azərbaycanın sərhədləri daxilində tamamlanması üçün həmin prosesin investisiya təminatının daha yeni əsaslarla qurulması təmin edilməli və həmin məqsədlər üçün dövlət investisiyalarından istifadənin səmərəli yolları tapılmalıdır.

4.Təhlil materialları göstərir ki, ümumi investisiya qoyuluşlarının tərkibində hazır və son istehlak mallarının və xidmətlərin istehsalına yönəldilən investisiyaların həcmi hələ ki,

aşağı səviyyədədir. Yalnız xarici investisiya qoyuluşları ilə deyil, daha çox milli investisiya yatırımlarının həcmini və səviyyəsini artırmaqla hazır və son istehlak malları və xidmətləri istehsalını artırmaq olar. Bunun üçün ilk növbədə dövlət və özəl bölmənin birgə maliyyə vəsaitlərindən istifadə etmək olduqca vacibdir. Daha çox Azərbaycanda qeyri-neft sənaye malları istehsalı istiqamətində "Hazır sənaye malları istehsalı yönümlü investisiya fondu"nun təsis edilməsi daha diqqətə layiq dövlət tədbiri hesab edilməlidir.

5. Bazar mexanizminin fəal işləməsi özlüyündə istehsalda innovativ fəaliyyətin intensiv xarakter almasını tələb edir. Bu mənada milli iqtisadiyyatda formalaşa bilən innovasiya fəaliyyətinin gücləndirilməsi və bu fəaliyyətin konkret cəhətlərini özündə əks etdirən texniki-texnoloji və iqtisadi-sosial göstəricilərin müəyyən edilməsi həlledici əhəmiyyətə malikdir. Birmənalı demək olar ki, milli geniş təkrar istehsal prosesində və onun hər bir mərhələsində səmərəli innovasiya siyasətinin aparılması ilə ölkədə ümumi daxili məhsulun və milli gəlirin sabit artımına və bu artımın perspektivlərinə zəmanət vermək olar.

6. İşğaldan azad edilmiş Qarabağ regionunun Azərbaycanın milli iqtisadi inkişafı dövriyyəsinə cəlb edilməsi istiqamətində həyata keçirilən məqsədyönlü tədbirlər ölkədə istehsal və istehlakın bütöv halda formalaşmasına, istehsal imkanlarının sürətlə artmasına birbaşa təsir etməkdədir. Fikrimizcə, Azərbaycanın milli iqtisadiyyatının inkişafına yönəldilən daxili investisiyalar şəxsi və istehsal istehlakının hərtərəfli genişlənməsinə və bununla da, səmərəli əmək fəaliyyətinə marağı birbaşa artırmaqdadır. Bu prosesə daha geniş meydan vermək üçün milli sənaye istehsalının həcmini artıran və strukturunu yaxşılaşdıran, modernləşmə məqsədilə innovativ investisiyalardan istifadə etməklə yeniliklər tətbiq edən müəssisələrə dövlət tərəfindən birbaşa maliyyə dəstəyinin gücləndirilməsi, hətta lazım gəldikdə həmin istehsal müəssisələrinə vergi güzəştlərinin tətbiq edilməsi önəmli addım hesab edilə bilər.

7. Ölkəmizdə davamlı iqtisadi artımın təmin edilməsi və qeyri-neft ixracının genişləndirilməsi üçün orta və yüksək mürəkkəblik dərəcəsinə malik rəaqbətqabiliyyətli, innovativ son məhsul istehsal edən emal sənayesinin inkişafı vacibdir. Milli iqtisadi inkişafın

sürətləndirilməsinə təkrar istehsalın genişlənmiş miqyasda intensiv artımının təsir imkanlarının çoxaldılması üçün strateji sənayeləşdirmə yoluna qısa zamanda düşmək çox vacibdir.

8. Azərbaycanda milli gəlirin istehlak və yığım arasında optimal bölgüsünə nail olunması təkrar istehsalın təkmilləşdirilməsinin əsas istiqamətlərindən hesab olunur. Hazırda Azərbaycan əhalisinin həyat səviyyəsinin milli iqtisadi inkişafdan asılılığı daha da güclənir. Bunun üçün hökumət istehsal yığımından daha səmərəli istifadə yollarını müəyyən etməklə milli investisiya qoyuluşlarının potensial imkanlarını aşkara çıxarmalıdır. Bu istiqamət milli məhsul istehsalının elmi-texniki bazasının daim yenilənməsini təmin etməklə yanaşı, milli iqtisadi inkişafın sürətlənməsinə də müsbət təsir göstərəcəkdir.

9. Azərbaycanda qeyri-neft sektorunun sahə strukturunun yenidən qurulmasında iqtisadi idarəetmə mexanizmləri sisteminə bazar vasitələri ilə yanaşı əlaqələndirici dövlət vasitələrinin də daxil edilməsi zəruridir. Bu vəziyyət həlli mümkün olmayan və ya çətin olan problemlərin aradan qaldırılmasında bazar mexanizmlərinin stimullaşdırıcı təsirini dövlətin iqtisadi tənzimləmə metodları ilə əlaqələndirməklə müsbət nəticələrə nail olmağa imkan verər. Azərbaycanın qlobal təkrar istesal və dəyər zəncirinə səmərəli inteqrasiyası daxili və xarici bazarlarda əhalinin tədiyyə qabiliyyətli tələbinin həcm və strukturuna uyğunlaşan, idxalı əvəzləyən və şaxələndirilmiş ixrac potensialının inkişafına yönələn dövlət siyasəti vasitəsilə mümkün ola bilər.

10. Azərbaycanda yüksək iqtisadi dəyərə malik bilik iqtisadiyyatının istehsal etdiyi məhsulların geniş təkrar istehsalı prosesində tətbiqi vəziyyəti bir qədər narahatçılıq doğurduğunu bildirməklə, həmin istiqamətdə səmərəli dövlət proqramlarının həyata keçirilməsinin bundan sonra da davam etdirilməsinin nə qədər zəruri olduğu nəzərə alınmalıdır. Bu sahədə strateji hədəflər dəqiqləşdirilməli, ilk növbədə Azərbaycanda elm-təhsil-innovasiya-istehsalat vəhdətini müasir dövrün tələblərinə uyğunlaşdırmaq dövlətin və özəl sektorun diqqət mərkəzində saxlanılmalıdır.

## Müəllifin çap olunan elmi əsərlərinin siyahısı:

1. Verdiyeva, P.S. Milli iqtisadi inkişaf və sosial sferanın inkişaf yolları // – Bakı: AMEA İqtisadiyyat İnstitutu. Elmi əsərlər. IV Buraxılış. – 2013, – s. 120 – 126.

2. Вердиева, П.С. Оценка аспекта воспроизводства национального экономического развития // – Москва: Экономика и предпринимательство. №4. Т.2 (45–2). – 2014, – с. 207–214.

3. Verdiyeva, P.S. Milli iqtisadi inkişafın təkrar istehsal aspektləri və onun qiymətləndirilməsi // – Bakı: Azərbaycan Dövlət İqtisad Universitetinin elmi xəbərləri. №4. – 2014, – s. 112 – 124.

4. Verdiyeva, P.S. Milli iqtisadiyyatın təkrar istehsal prosesinin sürətləndirilməsinin milli iqtisadi inkişafa təsiri istiqamətləri // Azərbaycan Respublikası Təhsil Nazirliyi Azərbaycan Milli Elmlər Akademiyasının 70 illik yubileyinə həsr olunmuş doktorantların və gənc tədqiqatçıların XIX respublika elmi konfransının materialları. I Cild. – Bakı: İqtisad Universiteti, – 7 – 8 aprel, – 2015, – s. 294 – 296.

5. Вердиева, П.С. Направления усиления влияния механизма воспроизводства на развитие рыночной экономики // – Москва: Наука и бизнес. Пути развития. №1(55). – 2016, – с. 32-36.

6. Kərimli, İ.A. Azərbaycan iqtisadiyyatında təkrar istehsal mexanizmi və milli iqtisadi artımın sürətləndirilməsi perspektivləri // İ.A.Kərimli, P.S.Verdiyeva. – Bakı: AMEA İqtisadiyyat İnstitutu. Elmi əsərlər. II Buraxılış, – 2018, – s. 31 – 36.

7. Verdiyeva, P.S. Azərbaycan iqtisadiyyatında təkrar istehsal mexanizminin təkmilləşdirilməsi istiqamətləri // – Bakı: AMEA İqtisadiyyat İnstitutu. Elmi əsərlər. I Buraxılış. – 2018, – s. 92 – 97.

8. Verdiyeva, P.S. Azərbaycan ümumdünya təkrar istehsal prosesinin ayrılmaz tərkib hissəsi kimi // VI Beynəlxalq türk dünyası araşdırmaları simpoziumu. II cild. – Bakı: Bakı Avrasiya Universiteti. – 13 – 15 iyun, – 2019, – s. 293 – 296.

9. Verdiyeva, P.S. Yığımla istehlak arasında uyğunluğun

yaradılmasının əsas istiqamətləri // Uluslararası Bilimsel Araştırmalar Sempozyumu. – Türkiye, İzmir: İksad. – 29 – 31 Avqust, – 2019, – s. 164 – 167.

10. Verdiyeva, P.S. İnvesting in the Azerbaijani economy is a factor in the improvement of the recycling mechanism // – Vienna, Austria: European Journal of Humanities and Social Sciences. Premier Publishing. №4. – 2019, – p. 111-116.

11. Verdiyeva, P.S. Azərbaycanda davamlı ekoloji inkişafa əsaslanan bazar mexanizminin formalaşdırılması istiqamətləri // "Dövlət atributlarından Konstitutsiyaya" adlı respublika elmi-praktiki konfransı. – Bakı: Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi xidmətinin Heydər Əliyev adına Akademiyası. – 12 noyabr, – 2019, – s. 286 – 291.

12. Verdiyeva, P.S. Azərbaycanın ixrac səbətinin İqtisadi Mürəkkəblik İndeksi əsasında təhlili // – Bakı: Statistika xəbərləri. №3, Cild 3. – 2021, – s.34-40.

Dissertasiyanın müdafiəsi 10 noyabr 2021-ci il tarixdə saat $11^{00}$-da Azərbaycan Milli Elmlər Akademiyası, İqtisadiyyat İnstitutunun nəzdində fəaliyyət göstərən ED 1.10 Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: AZ1143, Azərbaycan Respublikası, Bakı şəh., H.Cavid pr., 115
e-mail: economicscomaz@gmail.com

Dissertasiya ilə Azərbaycan Milli Elmlər Akademiyası, İqtisadiyyat İnstitutunun kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları Azərbaycan Milli Elmlər Akademiyası, İqtisadiyyat İnstitutunun rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 8 oktyabr 2021-ci il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 04.10. 2021

Kağızın formatı: A5

Həcm: 40,667

Tiraj: 100